



Nazim ƏHMƏDLİ

**Şəklimi divardan as**

göy üzü yaman dolub,
buludlar daraq-daraq;
gəl uşaq olaq bir az,
burda bir evcik quraq.

hərə bir çiçək üzək,
suların üstə düzək;
kağızdan qayıq düzəlt,
üzək, dənizi yoraq.

bulud harda yuxalır,
sular axıb yox olur;
ayrılıqlar çoxalır,
bizdən iraq, min iraq.

nə istədin bu yazdan,
yel əsdi aramızdan;
mən uçacam bir azdan,
daha əlimi burax.

daha saçlarım bəyaz,
mənə düşərmi bu yaz;
şəklimi divardan as,
yadına düşəndə bax.

**Ürəyim daha yoxdu**

hardan gəldi bu ağrı,
ürəyimi nə sıxdı;
hansı yolu aradım,
gedib həsrətə çıxdı.
könlümü söz tutubdu,
ruhumu toz tutubdu;
elə bil buz tutubdu,
canım yaman soyuqdu.

ömür-gün də azıymış,
sevgilər ayazımış;
uzaq sularda azmış,
könlüm tənha qayıqdı.

kimlər məni ağladı,
dərdimi qucaqladı;
qara bulud çağladı,
bilmədim, hara yağdı.

mən niyə kür imişəm,
dinmirəm, kirimişəm;
onu sənə vermişəm,
ürəyim daha yoxdu.

**Saçlarıma bir səhər çək**

gümüş yuxular kimiyəm,
gecələrim çiçək-çiçək;
dönüb qayıtmır üstümə
xəyallarım gerçək-gerçək.

axı nədən belə kürsən,
elə könlümü ütürsən;
gedib sənə dərd gətirsəm,
ağla, sızla, birtəhər çək.

mən hansı cığırda azdım,
qar tutubdu alın yazım;
pörşələnib dilim-ağzım,
göz yaşından bir zəhər çək.

ağca sular axıb gedər,
həsrət məni yaxıb gedər;
qoyma ruhum  çıxıb gedə,
ürəyinə bir çəpər çək.

dünyanı  çapım, gətirim,
dərdin ağ sapın gətirim;
bir fırça tapım, gətirim,
saçlarıma bir səhər  çək.

## Hələ bu, dərdin biridi

illər ötdü, zaman keçdi,
dərdlər sızaq-sızaq qaldı;
anamın beşcə körpəsi
böyümədi, uşaq qaldı.

ürəyim pis olur hərdən,
dönüb qaçıram hər  yerdən;
anamın çəkdiyi dərddən
gözlərində bulaq qaldı.

hələ bu, dərdin biridi,
ruhumu həsrət sürüdü;
dörd yanı yağı  bürüdü,
nə yol, nə də yolaq qaldı.

o kimdi, orda lalıyan,
dönüb dörd yanın dalıyan;
içimdə bərkdən uluyan,
bir tənha yalquzaq qaldı.

xatirələr  pərən-pərən,
hanı dərdi günə sərən;
aranı nə kəsdi, görən,
dağlar bizdən uzaq qaldı.

## Mən adda adam yoxdu

kimdi qapımı döyən,
axı bu gecə vaxtı;
mən nə vaxtdan yatmışam,
təkcə  ruhum oyaqdı;

durum gedim hayana,
sular axıb dayanar;
bəs o alışıb yanan
ulduzlar hardan axdı?

ta qönçələr boy atmır,
kimsə məni oyatmır;
əllərim göyə çatmır,
göy üzü çox uzaqdı.

mən nə sində, nə üzdə,
bu bətdə, bu bənizdə;
ruhum uzaq dənizdə
bir yelkənsiz  qayıqdı.

deyir, bəduğurmuşam,
harda dərd, udurmuşam;
deyən, unudulmuşam,
mən adda adam yoxdu.

## Barışa bilmirəm daha

elə bil köç düşüb göyə,
ağ buludlar çadır-çadır;
yenə ürəyim çırpınır,
canıma ağrılar qatır;

harda batmışam günaha,
üzüldüm bir qəfil aha;
barışa bilmirəm daha,
şirin su da acı dadır.

yenə soyuq  çillə gəlir,
dərd də gülə-gülə gəlir;
hərdən mənə elə gəlir,
bu Yer üzü bizə yaddır.

mən nə bətdə, nə bənizdə,
vurnuxuram itən izdə;
sevdiyim o göy dənizdə
bir yiyəsiz gəmi batır.

ötmür  bu dumanlar, çənlər,
kimdi o yoldan keçənlər;
qapımızda yal içənlər
qayıdıb bizə daş atır.

dartılıram kaman kimi,
yox oluram zaman kimi;
ruhum azmış duman kimi,
hansı xarabada yatır?